

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 145 (23.056)

3 avqust 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Səmərəli məşğulluğun təmini əhalinin yaşayış səviyyəsini yüksəltmişdir

Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilmiş məqsədyönlü tədbirlər hərtərəfli inkişafa mühüm təsir göstərmişdir. Belə ki, muxtar respublikanın dinamik inkişafını sürətləndirən və əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının, həmçinin 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015 və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının icrası nəticəsində ucqar dağ kəndlərindən şəhər və rayon mərkəzlərinə qədər yollar yenidən qurulmuş, infrastruktur yenilənmiş, yeni iş yerləri yaradılmış, kənd mərkəzləri, xidmət mərkəzləri, təhsil, səhiyyə və mədəniyyət obyektləri istifadəyə verilmiş, elektrik xətləri yenilənmiş, rabitə və poçt xidmətləri yaxşılaşdırılaraq əhalinin yaşayışı, sosial xidmətlərlə təminatı və məşğulluğunun artırılması məqsədilə bütün lazımi şərait yaradılmışdır.

Ötən dövrdə muxtar respublikada iqtisadiyyatın bütün sahələrində artım qeydə alınmışdır. Belə ki, inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalı 2018-ci ilin yanvar-iyun aylarında 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfə artaraq 1 milyard 246 milyon 624 min 700 manata, hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 3,4 dəfə artaraq 2748,3 manata çatmışdır. Bu dövrdə sənaye məhsulu 6,6, əsas kapitala yönəldilən vəsaitlər 4,8, kənd təsərrüfatı məhsulu 2,8, nəqliyyat sektorunda yük daşınması 1,9, informasiya və rabitə xidmətləri 2,3, ixrac 17,5, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 1,9 dəfə artmışdır.

Muxtar respublikada əldə olunmuş uğurlar demoqrafik proseslərə də müsbət təsir göstərmiş, 1 yanvar 2008-ci illə müqayisədə əhalinin sayı 16 faiz artaraq 1 iyul 2018-ci il tarixə 454,3 min nəfər olmuşdur.

Artan əhalinin məşğulluğunun təmin olunması, əmək bazarının tələbinə uyğun peşə hazırlığına yiyələnməsi və ixtisaslı kadr potensialının yaradılması məqsədilə təkcə 2018-ci ilin ilk altı ayında Naxçıvan Regional Peşə Tədris Mərkəzində aşpaz köməkçisi, xalçaçı, bərbər, dayə, bərbər-manikürçü, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, traktorçu-maşinist peşələri üzrə 108 nəfər, Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisəsində isə 20 nəfər ağac və duz üzərində oyma peşələri üzrə kurslara cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə ixtisas təhsili müəssisələrində 1296 nəfər müxtəlif peşələrə yiyələnmişdir.

İqtisadiyyatın stimullaşdırılması və yeni iş yerlərinin yaradılması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində 1 iyul 2008-ci il tarixdən cari ilin müvafiq dövründək muxtar respublikada 39 min 319 yeni iş yeri açılmışdır ki, bunun da 88,8 faizi daimi iş yerləridir. Son on ildə muxtar respublikada açılmış 34 min 933 daimi iş yerinin 1499-u



yeni yaradılmış, 11 min 404-ü mövcud, 46-sı isə fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 21 min 984-ü fiziki şəxslərdə yaradılmışdır. Açılmış ümumi yeni iş yerlərinin 46,5 faizi Naxçıvan şəhərinin, 15,3 faizi Şərur, 11,9 faizi Babək, 6,7 faizi Ordubad, 8,5 faizi Culfa, 4,1 faizi Kəngərli, 4,5 faizi Şahbuz, 2,5 faizi isə Sədərək rayonlarının payına düşmüşdür.

***Son on ildə yeni yaradılmış iş yerləri***
***(ümumi yekunda xüsusi çəkisi, faizlə)***




Təkcə 2018-ci ilin birinci yarımilində muxtar respublikada 1364 yeni iş yeri yaradılmışdır ki, bunun da 98,3 faizi daimi iş yerlərinin payına düşmüşdür.

Həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, 2018-ci ilin birinci yarımilində məşğul əhalinin sayı 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 dəfə artaraq 236,4 min nəfərə çatmışdır.

2018-ci ilin iyun ayının sonuna muxtar respublikada muzdla işləyənlərin sayı 96 min nəfər təşkil etmiş, işçilərin 40,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 55,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,2 faizi sənaye, 12 faizi tikinti, 18,1 faizi topdan və pərakəndə ticarət, 5,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,8 faizi yaşayışın təşkili və ictimai iaşə, 1,1 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,6 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,3 faizi peşə, elmi və texniki fəaliyyət, 1,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,5 faizi dövlət idarəetməsi və sosial təminat, 15,4 faizi təhsil, 6,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 4,1 faizi istirahət, əyləncə



və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşdur.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı şərait yaratmış, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə artaraq 2018-ci ilin ilk yarımilində 426 manatı ötmüşdür.

Orta aylıq əməkhaqqı dövlət sektorunda 346,8 manat, qeyri-dövlət sektorunda isə 484,3 manat təşkil etmişdir. Bir işçiyə hesablanmış ən yüksək orta aylıq əməkhaqqı göstəricisi maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və sosial təminat, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Muxtar respublikada səmərəli məşğulluğun təmin olunması, sosial sahəyə göstərilən diqqət və qayğı bundan sonra da əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Enerji təhlükəsizliyinə diqqət artırılır

*İstifadə etdiyimiz maddi nemətlər arasında ərzaq və enerji öz əhəmiyyətinə görə həmişə seçilir. Xüsusən isti yay günlərində elektrik enerjisinə olan tələbatın artması ilə onun istehsalı və istifadəsinə olan diqqət də artır.*

Elektrik enerjisi günün 24 saatı ərzində ehtiyac duyulan tələbatlardandır. Davamlı və keyfiyyətli elektrik enerjisi təkcə qaranlıqda qalmamaq üçün zəruri deyildir. Elektrik enerjisi kəsilsə, qışda evimiz isti, yayda sərin olmayacaq, yollarda, xüsusən şəhərdaxili yollarda hərəkət dayanacaq, məktəbdə dərslər, xəstəxanalarda müayinə və müalicə yarımçıq qalacaq, əkinlər susuzluqdan yanacaq, evdəki, marketdəki ərzaq xarab olacaq, radio, televiziya yayımları dayanacaq, qəzetlər çap olunmayacaq, internet kəsiləcək. Çörək zavodlarının, iqtisadiyyatımızın əsas gəlir gətirən müəssisələrinin də işinin dayanmasını buraya əlavə etsək, daimi elektrik təminatının həyati əhəmiyyətini bir daha görərik.

Bu baxımdan bol olduqda bəzən laqeyd yanaşdığımız, qıt olduqda isə əsl problemlər yaradan enerji sarıdan təhlükəsizliyə nail olmaq üçün dövlətin həyata keçirdiyi tədbirlərlə yanaşı, hər bir vətəndaşın, enerji istehlak edən hər bir şəxsin maariflənməsinə ehtiyac vardır. Xüsusən enerjidən düzgün istifadə, ona qənaət üçün yeni texnologiyalardan yararlanmaq, evdə və işdə onların tətbiqi min bir zəhmətlə başa gələn qiymətli enerji resurslarımızdan səmərəli istifadəyə imkan



yaradır. Ona görə də enerji təhlükəsizliyinin təmin olunması baxımından elektrik enerjisinin istehsalı, onun itkisiz nəql olunması, satışının və haqqının toplanması və ona qənaət olunması məsələləri həmişə kompleks şəkildə diqqətdə saxlanılır.

Enerjidən asılı olmağın yaratdığı çətinliklər Naxçıvanda, demək olar ki, hər kəsə tanışdır. Çox da uzaq olmayan keçmişə bir anlıq nəzər salsaq, cəmisi bir elektrik stansiyasının ümidinə qalmış Naxçıvanda blokada şəraitinin ən çətin dövrlərini görərik. O dövrdə enerji qıtlığının iqtisadiyyatı iflic vəziyyətə salması sosial-mədəni həyata da ciddi təsirini göstərir, insanların həyat səviyyəsi aşağı düşürdü.

Artıq həmin vaxtlardan keçən müddət ərzində muxtar respublikada enerji təhlükəsizliyi sarıdan görülən irimiqyaslı işlər öz bəhrəsini verib. Enerji təsərrüfatında müasir infrastruktur yaradılıb, enerjinin hasil olunmasından istehlakınadək yeni texnologiyaların tətbiqinə nail olunub,



ən əhəmiyyətlisi isə insanların enerjidən istifadəyə münasibəti dəyişilib. İndi artıq hər sahədə olduğu kimi, enerjidən istifadədə də insanlar bunu milli sərvətimizin bir hissəsi kimi qəbul edir, enerjiyə qənaət etməklə bərabər, ona israfçılıqla yanaşanları da qınayırlar. Çünki Azərbaycan karbohidrogen enerji resursları ilə zəngin olsa da, bunlar, ümumilikdə, bizim iqtisadi təhlükəsizliyimizdə mühüm rol oynayır və ona qənaət hər bir vətəndaşın borcudur.

Hazırda Naxçıvanda enerji təhlükəsizliyi daha çox alternativ və bərpaolunan enerji mənbələri hesabına təmin olunub. Muxtar respublikanın daxili imkanları hesabına istifadəyə verilən və əksəriyyəti də hidroelektrik stansiyaları və regionda ən böyük Günəş Elektrik Stansiyası olan güc mənbələri əhalinin məişət ehtiyaclarının və eləcə də sənaye və kənd təsərrüfatının tələbatını tam şəkildə ödəməyə imkan yaradıb. 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 22 meqavat gücündəki Naxçıvan Günəş Elektrik Stansiyası, 4,5 meqavatlıq Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyası, 22 meqavatlıq Biləv, 20,5 meqavatlıq "Arpaçay-1" və 1,4 meqavatlıq "Arpaçay-2" Su Elektrik stansiyaları ilə yanaşı, tikinti işləri davam etdirilən, layihə gücü 36 meqavat olacaq Ordubad Su Elektrik Stansiyası və texniki-iqtisadi cəhətdən əsaslandırılması aparılan 14 meqavat layihə güclü Tivi və 3,5 meqavat layihə güclü Qazançı Su Elektrik stansiyaları, habelə Culfa rayonu ərazisində tikintisinin texniki-iqtisadi əsaslandırılması aparılan külək elektrik stansiyası muxtar respublikanın enerji potensialının gələcəkdə daha da artması üçün görülən işlərdəndir.

Hazırda Naxçıvanın çox böyük elektrik enerjisi potensialı vardır. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsinə daxil olan elektrik stansiyalarının ümumi qoyuluş gücü toplamda 239,4 meqavat təşkil edir. Ayrıca, 2018-ci ilin altı ayında bu elektrik stansiyalarında 195 milyon 675 min 789 kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bu enerjinin də 44,93 faizi su elektrik stansiyalarının, 8,84 faizi isə Naxçıvan Günəş Elektrik Stansiyasının payına düşüb. Şübhəsiz, tikintisi davam etdirilən və layihələndirilən stansiyaların işə düşməsi ilə gələcəkdə bu güc daha da artacaq. Bunun reallığa çevrilməsi üçün isə muxtar respublikada hər cür təbii, texniki, maliyyə və insan resursları vardır. Naxçıvan Dövlət Universitetində Energetika mühəndisliyi ixtisasının açılması, köhnəlmiş infrastrukturun sürətlə yenilənməsi, uçot sisteminin təkmilləşdirilməsi, enerji istifadəçilərinin smart sayğaclarla təchiz olunması və istifadə olunmuş enerjinin dəyərinin tam ödənilməsi muxtar respublikanın enerji idxalçısından enerji ixracatçısı mövqeyinə gəlib çatmasında əsas amillərdəndir. Müasir Naxçıvan iqtisadiyyatının bu nailiyyəti isə bacarıqlı idarəetmə və görülən işə doğma münasibətlə əldə olunub.

✍ Əli CABBAROV

İstehsal müəssisələri

## Min bir dərdin dərmanı "Farma Şah"dadır

*Şahbuz şəhərində bir ünvan var. Burada yabanı halda bitən qiymətli dərman bitkilərinin emalı və paketlənməsi ilə məşğul olan "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyəti yerləşir. 2009-cu ildə təsis edilən bu müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Yaradıldığı ilk ildə cəmi 4 adda – çobanyastığı, solmazçiçək, adaçayı, yarpız bitkilərini toplayıb çaylarını hazırlayan müəssisə ildən-ilə fəaliyyətini genişləndirib, 2014-cü ildə 40 çeşiddə, 24 adda istehsal olunan müəssisədə hazırda bu rəqəm 69 çeşidə, 55 ada çatdırılıb. Burada 7 daimi (sifarişlər çox olduqda 2-3 nəfər də müvəqqəti olaraq işə cəlb olunur), 20 mövsümi işçi çalışır.*




Müəssisəni əsas xammalla rayon sakinləri təmin edirlər. Onlar oksigenlə zəngin və günəşi bol olan, dəniz səviyyəsindən yüzlərlə metr yüksəklikdə yerləşən dağlardan, çəmənlərdən hər birinin öz dərilmə vaxtı olan – bəzən səhərin sübhündə, axşamın toranında, bəzənsə qarın altından, yağışdan dəhral sonra topladıqları min bir dərdə dərman olan bitkiləri müəssisəyə təhvil verirlər.

Müəssisənin rəhbəri Yasin Babayev söhbətimiz zamanı bildirdi ki, buraya bitkilər, əsasən, Biçənək, Kükü, Keçili, Şahbuzkənd və Badamlı kəndlərinin sakinləri tərəfindən gətirilir. Elə bitkilər var ki, onlar Şahbuz rayonunun ərazisində bitmir və yaxud ehtiyatı az olur. Bu bitkiləri isə muxtar respublikanın digər rayonlarının sakinlərindən qəbul edirik. Bitkilərin hər birinin də öz qəbul qiyməti var ki, o da 2-20 manat arasında dəyişir. Bir vacib məsələni də hər zaman bitki toplayanlara tövsiyə edərək deyirəm ki, xeyli qazanc əldə etdiyiniz bu bitkiləri yığarkən onlara çox həssaslıqla yanaşın, toplanma qaydalarına əməl edin ki, onların kökü birdəfəlik kəsilməsin. Bu yurdun nemətləri dərdlərin dərmanı olmaqla yanaşı, həm də kəndlərimizdə yaşayan əksər insanların qazanc mənbəyidir.

Müəssisədə istehsal olunan məhsulların 26-sı müalicəvi bitkilər, 14-ü müalicəvi bitki çayları, 15-i müalicəvi bitki yığıntıları, 2-si bəkməz (2 adda, 4 çeşiddə), 10-u isə kapsullardır. Müalicəvi bitkilər 40 qramlıq qutularda qablaşdırılır. Bitkilərin növündən və istifadə qaydasından asılı olaraq istehsal üçün onların yarpağı, çiçəyi, meyvəsi, qabığı götürülür. Müalicəvi bitki çayları 2 çeşiddə – açıq və birdəfəlik şəkildə istehsal edilir, müxtəlif ölçülü qutularda qablaşdırılır. Adi, limonlu, qızılgül ətirli kəklikotu, baldırğan, qantəpər çiçəklərindən, yemişan, həmərsin meyvələrindən və digər çiçəklərdən hazırlanan çaylar ətri və insan orqanizmi üçün faydalarına görə əvəzsizdir. Faydalı minerallarla yanaşı, fosfor, yod, kalsium və bir sıra vitaminlərlə zəngin olan bu çayların tərkibindəki antioksidant maddələri xərçəngin istənilən növünün yaranmasının qarşısını alır. Orqanizmdə maddələr mübadiləsini bərpa etməklə xolesterolun miqdarını azaldır, artıq çəkinin yaranmasının qarşısını alır. Həmçinin bakteriyaları və mikrobları öldürür, orqanları daxilən təmizləyir, beyin hüceyrələrini aktivləşdirir.

Müəssisədə istehsal olunan müalicəvi bitki yığıntıları isə bir neçə bitkinin qarışığından hazırlanaraq 27 və 40 qramlıq qutularda qablaşdırılır, qutuların üzərində isə hansı xəstəliklərin müalicəsində istifadə qaydası haqqında məlumat verilir. Onlar şəkərli diabet, mədəaltı vəzin iltihabına qarşı, ağciyər xəstəlikləri, piylənmə, sinir sistemində oyanıqlıq və sair xəstəliklərin, səhhətdə yaranan hər hansı problemin təbii yolla müalicəsində çox qiymətli vasitədir. Müsahibimiz bitki yığıntısının istifadəsi barədə də danışdı: – İki xörək qaşığı yığıntının üzərinə 200 ml (1 stəkan) qaynar su tökülür, 15 dəqiqə su hamamında dəmlənir, otaq temperaturunda soyudulur, süzülür. Gündə 2-3 dəfə, hər dəfə 1/2 stəkan qəbul edilir.

Keçiboynuzu və tut bəkməzləri 330, 450 və 800 qramlıq qablaşmalarda "Şahab" və "Şəfam" etiketləri ilə buraxılır. Keçiboynuzu bəkməzi Türkiyə Respublikasından xammal olaraq alınır, müəssisədə əlavə emal edilməklə homogenləşmə aparıldıqdan sonra qablaşdırılır. Tut bəkməzi isə tamamilə yerli xammaldan hazırlanır. Burada, həmçinin müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan qara çörəkotu, ərküdə, sarımsaq və digər bitki yığıntılarından kapsullar da hazırlanır. Üyüdülmüş bitkilər kapsullara doldurulur və tutumu 60 və ya 100 kapsul olan şüşə flakonlara yığılır. Digər bir kapsul – qaraciyərin xroniki iltihabı xəstəlikləri, spirtli içkilər, antibiotiklər və digər preparatlarla toksiki zəhərlənmələrdə, bütün növ hepatitlərdə və sirrozda, qaraciyər piylənməsində, öd və öd yolları xəstəliklərində istifadə olunan heparkaps-70 və heparkaps-40-dır. Alaqanqal toxumu və əkin artişoku yarpağı ekstraktlarının xüsusi qarışdırılması yolu ilə əldə olunan bu şəfaverici isə tutumu 30 və 60 kapsul olan şüşə qablarda qablaşdırılır.

Müəssisə rəhbəri ilin sonunadək istehsalına başlayacaqları 5-6 adda yeni məhsulun sırasında ürək, yuxarı tənəffüs yolları xəstəliklərində, soyuqdəymədə faydalı olan gülümbahar və qaraqınıq bitkilərdən hazırlanan çayların, yığıntıların da olacağını bildirdi.

İstehsal prosesini həyata keçirmək üçün müəssisədə 8 aparatdan istifadə edilir. Alınan bitkilər əvvəlcə xüsusi aparatda yuyulur, qurudulur. Sonrakı işlər isə buradakı doğrama, iri, narın, çox narın üyütmə, liptonlama, polietilen vurma, kapsul doldurma aparatları vasitəsilə görülür. Biz müəssisədə olarkən liptonlama aparatında birdəfəlik kəklikotu çayları paketlənir, məhsul qutulara yığılaraq üzərinə aparat vasitəsilə polietilen örtük vurulurdu. Digər sexdə isə kapsuldoldurma aparatları vasitəsilə heparkaps kapsulları hazırlanırdı. Müəssisədə sifariş əsasında hazırlanan məhsullar sonda öz ünvanlarına çatdırılır.

Qeyd edək ki, müəssisə gün ərzində 800 qutu çay, 400 şüşə qab bəkməz, 300 şüşə qab kapsul istehsal etmək gücünə malikdir. Məhsulların qutularının üzərində istifadəsinə göstəriş, saxlanma şəraiti və istifadə tarixi haqqında məlumatlar əks olunur.

İndi muxtar respublikamızda fəaliyyət göstərən ticarət mərkəzlərində, əczaxanalarda, hətta Naxçıvandan kənarda belə, "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyətin məhsullarını almaq, heç bir kimyəvi tərkibi olmayan, insan sağlamlığı üçün qiymətli hesab edilən yabanı bitkilərdən ailəliklə istifadə etmək olar. Vacib məsələlərdən biri də odur ki, yurdumuzda yabanı şəkildə bitən bitkilərdən xəstələnəndən sonra yox, gündəlik həyatımızda hər zaman istifadə oluna bilər. Çünki onların orqanizmdə yaratdığı güclü immunitet insanı bütün xəstəliklərdən qorumaq gücündədir.

✍ **Mətanət MƏMMƏDOVA**

## Kredit qoyuluşları artıb

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 2018-ci ilin 6 ayı ərzində muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 105 milyon 544 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 2 milyon 601 min manat, uzunmüddətli kredit qoyuluşu isə 102 milyon 943 min manat təşkil edib. Kredit qoyuluşları keçən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 719 min manat artıb.*



Qeyd edək ki, kreditləşmədə əsas məqsəd aqrar sektorun, kiçik və orta sahibkarlığın inkişafı, ixraca yardım və daxili bazarın qorunması olub. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 17 milyon 807 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 14 milyon 9 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə bərabər, real sektor da dəstəklənib.

Bank və kredit təşkilatları tərəfindən 2018-ci ilin ilk 6 ayı ərzində 26 milyon 438 min manat kredit verilib. Bunun da 2 milyon 695 min manatını qısamüddətli, 23 milyon 743 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib. Bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb. Kredit təşkilatları tərəfindən altı ayda 58 nəfər fiziki və hüquqi şəxsə 124 ədəd olmaqla, 1 milyon 628 min 200 manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilib. Hesabat dövründə, ümumilikdə, verilmiş kreditlərin 3 milyon 50 min manatını kənd təsərrüfatı sahəsinə yönəldilmiş kreditlər təşkil edib.

**Xəbərlər şöbəsi**

Yeniləşən kəndlərimiz

## Xok: müasir Azərbaycan kəndinin nümunəsi



***Kəngərli rayonu muxtar respublikamızın gənc bölgəsi olmasına baxmayaraq, sosial-iqtisadi inkişaf tempinə görə digər bölgələrdən geridə qalmır, ildən-ilə genişlənən tikinti-quruculuq tədbirləri nəticəsində müasirləşir, gözəlləşir, inkişafa qovuşur. Bu inkişaf və tərəqqi rayon mərkəzi ilə yanaşı, onun kəndlərini də əhatə edir. Xok da rayonun belə kəndlərindəndir.***

...Yolumuz Kəngərlinin böyük yaşayış məntəqələrindən biri olan Xok kəndinədir. Otlaqlarında qoyunquzu mələyən, münbit torpaqlarında, bərəkətli əkin sahələrində min bir nemət bitən bu yurd yeri rayonun Qarabağlar kəndindən sonra ikinci böyük yaşayış məntəqəsidir. Buraya üz tutanları gülərüz, mehriban qarşılayan qonaqpərvər kənd camaatının əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Kəndi gəzərkən bunun bir daha şahidi olduq, kəndətrafı sahələrdə qələbəlik müşahidə etdik. Bir tərəfdə bol-bərəkətli məhsul yığılır, digər tərəfdə əkin sahələri suvarılır. Həqiqətən də, bu yurdun insanları zəhmətkeş, torpağa, əməyə bağlıdırlar. Sahələrdəki bu xoş görüntülər bizi zəhmətkeş insanların yanına çəkib gətirdi, onlarla elə bərəkət ətirli tarlalarda, zəhmətin bəhrəsi duyulan ərazilərdə həmsöhbət olduq.

Müsahibimiz Məhəmməd Qəmbərov deyir ki, kənd təsərrüfatı çox sərfəli sahədir. Kimsə bunun əksini düşünürsə, o, zəhməti sevmir. Neçə illərdir ki, təsərrüfatla məşğulam, ailəmizin dolanışığını bu yolla təmin edirəm. Ətimiz də, yağımız da, pendirimiz də öz zəhmətimizin bəhrəsidir. Təsərrüfatla məşğuluq, bu sahə zəhmət tələb edir, amma bərəkətini də səndən əsirgəmir.

Kənddə olarkən inzibati ərazi dairəsi üzrə nümayəndə Mübariz Əliyev bu yurd yerinin təsərrüfat qayğıları barədə deyir ki, kəndin əkinəyararlı torpaqları indi zəhmətkeşlərin əsl dolanışıq yeridir. Artıq neçə ildir ki, yüksək məhsuldarlıq əldə edən kəndin torpaq mülkiyyətçiləri daxili bazarın tələbatının ödənilməsinə töhfələrini vermək, yerli istehsalın xüsusi çəkisinin artırılmasına nail olmaq üçün erkən yazdan sahələrə çıxırlar. Bunun üçün onlara hərtərəfli şərait yaradılıb.

Mübariz Əliyev bildirir ki, dövlət tərəfindən verilən güzəştli kreditlər, kənd təsərrüfatının, eləcə də sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şərait fərdi təsərrüfatların genişləndirilməsinə, məhsul istehsalının artırılmasına, əhalinin sosial rifah halının yüksəldilməsinə səbəb olub. Göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda burada bir şirniyyat və gəc istehsalı müəssisəsi, 5 lavaş sexi fəaliyyət göstərir.

Muxtar respublikamızda son illər həyata keçirilən möhtəşəm quruculuq işləri Xok kəndindən də yan keçməyib. Bu yaşayış məntəqəsində 2013-cü ildə yenidən qurulan məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, abadlaşan yolları, bir sözlə, şəhərləşən görkəmi ilə blokada şəraitində reallaşdırılan inkişafdan öz payını alıb. İcra nümayəndəsi ilə geniş quruculuq tədbirləri aparılan obyektlərlə də yaxından tanış olmaq imkanı əldə etdik. Müsahibimiz deyir ki, əvvəllər kənddə fəaliyyət göstərən dövlət qurumları, eyni zamanda səhiyyə, təhsil, mədəniyyət müəssisələri şəraiti olmayan, köhnə tikililərdə yerləşirdi. Təbii ki, bu da müxtəlif çətinliklər yaradırdı. Xüsusilə qış aylarında həmin müəssisələrin istiliklə təminatı çox çətin idi. Lakin burada yeni sosial obyektlərin istifadəyə verilməsi ilə mövcud çətinliklər aradan qaldırıldı, bütün qurumların fəaliyyəti üçün hər cür şərait yaradıldı.

Burada olarkən əzəmətli görünüşü ilə uzaqdan diqqəti cəlb edən kənd tam orta məktəbi ilə yaxından tanış olmaq istədik. Təhsil ocağının direktoru Zal Rüstəmov bizə məlumat verdi ki, əvvəllər köhnə, heç bir şəraiti olmayan binada fəaliyyət göstərən məktəb, bu gün yaraşıqlı binada elektron lövhələrlə, kompüterlərlə, müasir tədris vasitələri ilə təmin olunub. 1080 şagird yerlik olan məktəb binasında 800-ə yaxın şagird təhsil alır. Direktorun sözlərinə görə, son illər təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar bir sıra uğurların əldə edilməsi ilə nəticələnib. Belə ki, son tədris ilində məktəbin 29 məzunu olub. Onlardan 18-i ali, 1-i orta ixtisas məktəblərinə qəbul olunub. Məzunlardan 3-ü 500-700 intervalında bal toplayıb.

Burada olarkən tarix fənnini tədris edən Səyyad Həsənovdan bu yurd yerinin tarixi keçmişi haqqında məlumatlar aldıq. O, Xok toponiminin etimologiyası ilə bağlı maraqlı faktları diqqətimizə çatdırdı. Bildirdi ki, 1590-cı ildə "Əhmədağa dizəsi" adı ilə tanınan kənd 1936-cı ildə "Serqoabad" adı ilə əvəzlənib. Lakin rast gəldiyimiz mənbələrdə bu kənd "Xök" adı ilə də qeydə alınıb. Xok XIX əsrdə 9 kəndi əhatə edən mahal mərkəzi olub. XX əsrin əvvəllərində isə Qıvraq rayonunun tərkibinə daxil edilib. Bəzi mənbələrdə kəndin adının etimologiyası "xak" sözü ilə əlaqələndirilir. Bu isə qədim türk dilində "otlaq", "çəmən" mənasında işlədilir.

Ulu diyarımızın hər bölgəsi kimi, Kəngərli yurdu da yaşı yüzilliklərə söykənən, xalqımızın tarixini, mədəniyyətini əks etdirən türk-islam abidələri ilə zəngindir. Hazırda kənd sakinlərinin ibadət yerinə çevrilən Came məscidi Xokun qədim tarixindən soraq verir. Orta əsrlər zamanı Naxçıvan ərazisində özünəməxsus yeri, sosial-siyasi və ideoloji mərkəzlərdən biri olan Came məscidinin kitabələrində tikilmə tarixi haqqında bəhs edilmədiyindən onun inşası ilə bağlı dəqiq məlumat söyləmək mümkün deyil. Lakin memarlıq görkəmi, konstruktiv xüsusiyyətlərinə əsasən məscid XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır.

Dövlətimizin kənd yaşayış məntəqələrinə göstərdiyi böyük qayğını bu kəndin simasında bir daha bütün aydınlığı ilə görmək mümkündür. Yaradılmış şərait, vətəndaş amilinin diqqət mərkəzində saxlanılması kənd sakinlərinin rahat yaşayışını təmin edib.

✍ **Gülcamal TAHİROVA**

# Mutsuko Haseqava: “Əgər Azərbaycana səfər edəcəksinizsə, biz tövsiyə edirik ki, Naxçıvana səfər edin”

Yaponiya vətəndaşları Ucidate Saki və Mutsuko Haseqava 28-29 iyul tarixlərində Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşlar. Muxtar respublikada olduqları iki gün ərzində onlar Əlincəqalanı, Qazançı körpüsünü, Möminə xatın və Yusif Küseyir oğlu türbələrini, Naxçıvanqalanı, Dövlət Xalça Muzeyini, Duzdağı, Qarabağlar Türbə Kompleksini və “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət etmişlər. Muxtar respublikanın dağ kəndlərinə çəkilmiş yollar, Naxçıvan şəhərinin təmizliyi, xüsusilə tarixi abidələrin bərpası Yaponiya vətəndaşlarında böyük təəssürat yaratmışdır.

Ölkələrinə qayıtdıqdan sonra Mutsuko Haseqava öz “Facebook” sosial şəbəkəsində


Mutsuko Hasegawa
July 30 at 11:37 PM
Hidden gems of sightseeing in Azerbaijan
Nakhchivan is an enclave of Azerbaijan bordering Armenia, Iran and Turkey.
I visited Nakuchiban for the first time. It was wonderful than I imagined.
Nakhchivan is a beautiful area rich in cultural heritage. People have overcome the turmoil of the 19th and 20th century and recently began restoring the historical heritage.
If you can come to Azerbaijan, we recommend that you go to Nakuchiban.
ナヒチヴァンはアゼルバイジャンの飛び地でアルメニア、イラン、トルコと国境を接した地域です。 トルコ、ペルシャ、ロシアなどの列強の狭間で激動の19~20世紀を過ごし、近年ようやくと平穏を取り戻し、文化遺産の修復に着手しているところです。 ナヒチヴァンの情報はバクーでは入手しにくく、様子がわからないまま出発しましたが、予想以上に美しく興味深い地域でした。
See Translation

Naxçıvan Muxtar Respublikası barədə fotoşəkillər yerləşdirərək “Azərbaycanın gizli xəzinəsinə ekskursiya” başlıqlı yazı paylaşmışdır. Həmçinin o, muxtar respublika ilə bağlı hazırlanmış yeni videoçarxı da “Youtube” sosial şəbəkəsində yerləşdirmişdir.

“Azərbaycanın gizli xəzinəsinə ekskursiya” adlı paylaşımında Mutsuko Haseqava yazır: “Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ermənistan, İran və Türkiyə ilə sərhəddir. Mən ilk dəfə idi ki, Naxçıvana səfər edirdim. Lakin Naxçıvan təsəvvür etdiyimdən də gözəl yer, zəngin mədəni irsə malik olan diyardır. Əhalisi XIX-XX əsrlərdə baş vermiş çaxnaşmalara qalib gəlib. Hazırda özlərinin tarixi irslərini barpa edirlər. Əgər Azərbaycana səfər edəcəksinizsə, biz tövsiyə edirik ki, Naxçıvana səfər edin”.


















*Gəncliyimiz, gələcəyimiz*

## Babək rayonundan olan məzunlar qəbul imtahanlarında müvəffəqiyyət qazanıblar

Muxtar respublikamızın əksər orta ümumtəhsil müəssisələrində olduğu kimi, Babək rayonunun da bir çox məktəblərinin məzunları ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyət əldə ediblər. Bu gün rayonun təhsil müəssisələrinin hərtərəfli qayğı ilə əhatə olunması, maddi-texniki bazasının gücləndirilməsi, kadr təminatının xeyli yaxşılaşdırılması, müasir tədris şəraitinin yaradılması şagirdlərin imtahanlarda yüksək nəticə əldə etməsinin başlıca səbəblərindən biridir.

Babək Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, 2018-2019-cu tədris ili üçün ali məktəblərə imtahan verən I-V və II-III ixtisas qrupları üzrə 500-700 bal intervalında nəticə göstərən abituriyentlərin sayı xeyli artıb. Belə ki, Babək qəsəbə 1 nömrəli tam orta məktəbdən, rayonun Zeynəddin, Qahab, Məzrə, Şəkərabad, Hacıvar, Güznüt, Nehrəm, Didivar, Sirab, Vayxır, Cəhri, Çeşməbasar, Kültəpə kənd tam orta məktəblərindən, ümumilikdə, 35 şagird 500-700 bal intervalında nəticə göstərib.

Rayon üzrə ən yüksək göstəricini Babək qəsəbə 1 nömrəli tam orta məktəbin məzunu *Zübeydə Zeynalova* əldə edib, III ixtisas qrupu üzrə iştirak edən abituriyent 687 bal toplayıb. Söhbət zamanı öyrəndik ki, o əvvəlcədən maksimum bal toplamağı qarşısına məqsəd qoyub. Ancaq imtahanın həyəcan və stresi ondan



da yan keçməyib, iki sualı kağız üzərində səhv qaralamaqla indiki nəticəni göstərib. Əldə etdiyi yüksək nəticəni həm məktəbinin, həm də özünün uğuru hesab edir. Bildirir ki, bu gün daha yaxşı təhsil almağımız üçün hərtərəfli şərait yaradılıb. Bu da imkan verir ki, orta məktəb imtahanlarında, eləcə də ali məktəblərə qəbul zamanı yüksək nəticələr əldə edək. Uğur qazanmağın digər bir yolu isə özünə inanmaq və məqsədə çatmaq üçün çox çalışmaqdır. Bu işdə məktəb müəllimlərim ilə yanaşı, valideynlərimin də rolu böyük olub. Onların mənə inamları, dərslərimdə, imtahanlarımda həmişə dəstək olmaları bugünkü uğurlarımın başlıca səbəbidir. Bunun üçün valideynlərimə, bizə yaratdıqları hərtərəfli şərait üçün isə dövlətimizə minnətdaram.

Babək rayon Cəhri kənd 2 nömrəli tam orta məktəbin məzunu *Murad Babayev* II ixtisas qrupu üzrə 539 bal yığıb. Murad deyir ki, həyatda müvəffəqiyyət qazanmaq üçün gərək cəfakeş olasan. Düşünürəm ki, bundan da yaxşı nəticə əldə edə bilərdim. Əsas odur ki, zəhmət və inam olsun, bundan sonra irəliyə doğru addımlamaq



o qədər də çətin olmaz. Bu yolda mənə hər zaman dəstək olan müəllimlərimə və valideynlərimə sonsuz minnətdaram.

İmtahanda I ixtisas qrupu üzrə yüksək nəticəni Babək rayon Güznüt kənd tam orta məktəbinin məzunu *Xanım Qurbanova* göstərərək 624 bal toplayıb. O deyir ki, birinci sinfə gedəndən məktəbi bitirənədək valideynlərim mənim təhsilimə həmişə çox ciddi yanaşıblar. Onlar hər gün verilən tapşırıqları necə yerinə yetirməyimlə maraqlanıblar. Bu da məndə dərslərə həm məsuliyyət, həm də həvəslə yanaşma hissi yaradıb. Qazandığım uğurda müəllimlərimin rolunu da xüsusi vurğulamaq istəyirəm. Məktəbdə bizə daim belə bir fikir aşılanırdı ki, sizin başlıca vəzifəniz oxumaqdan ibarət olmalıdır. Digər tərəfdən, məktəbimizin müasir şəraiti, tədris avadanlıqları ilə hərtərəfli təchiz olunması lazım olan məlumatları asanlıqla tapmağıma və yaxşı oxumağıma səbəb olurdu.



Bütün bunlar gələcəkdə biz gənclərin cəmiyyətdə layiqli mövqe tutmağımıza kömək edəcək, ölkəmizin tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən bilməyimizdə əhəmiyyətli rol oynayacaq, malik olduğumuz istedadı ölkəmizin maraqları çərçivəsində istifadə edəcəyimizə şərait yaradacaq.

IV ixtisas qrupu üzrə ən yüksək nəticəni isə Babək rayon Zeynəddin kənd tam orta məktəbinin məzunu *Fatma Məmiyeva* əldə edib. Belə ki, o qəbul imtahanında 650 bal yığıb. Yüksək nəticə göstərən abituriyent həm valideynlərinin, həm də məktəb kollektivinin sevincinə səbəb olub. Uşaqlıqdan həkim olmaq istədiyini deyən Fatma bu arzusunu gerçəkləşdirəcəyinə əminliyini bildirib. Oxuduğu müddət ərzində fizika və kimya fənlərinə olan marağı istər məktəbdə keçirilən imtahanlarda, istərsə də qəbul imtahanında Fatmanın köməyinə çatıb.



O dedi: – Abituriyentlərə demək istərdim ki, sistemli və davamlı şəkildə çalışsınlar, yuxu rejimini isə pozmasınlar. Ən əsası özlərinə inansınlar. Uğurumu isə valideynlərimə və müəllimlərimə borcluyam. Biliklərə yiyələnməyimdə və formalaşmağımda daim onların dəstəyini hiss etmişəm.

Məlumat üçün bildirək ki, Babək rayonu üzrə builki qəbul imtahanlarında II ixtisas qrupu üzrə 115, III qrup üzrə 112, I qrup üzrə 104, IV qrup üzrə 27, V qrup üzrə 30 nəfər olmaqla, ümumilikdə, 388 şagird iştirak edib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Azərbaycan Kinosu Günü qeyd olunub



*Dünən 2 avqust – Azərbaycan Kinosu Günü münasibətilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə mərkəzin foyesində Kino Gününə həsr edilmiş sərgi ilə tanış olublar.*

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu gün Azərbaycan kinosunun yaradılmasının 120 illiyi tamam olur. İncəsənətimizin hamisi olan ulu öndərimiz milli kinonun inkişafına daim qayğı ilə yanaşıb, milli özünəməxsusluğu ilə seçilən koloritli, parlaq ekran əsərlərinin yaradılmasına diqqət yetirib. Bu gün dahi şəxsiyyətin siyasi xəttini uğurla davam etdirən Prezident cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir.

Vurğulanıb ki, dünya kinosunun yaranma dövrü ilə üst-üstə düşən Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlayır. Azərbaycan yazıçısı İbrahim bəy Musabəyovun dövrün həyat hadisələrini və lövhələrini əks etdirən, janr etibarilə melodram olan "Neft və milyonlar səltənətində" povesti əsasında çəkilən ilk tammetrajlı film bədii film kimi kino tariximizə daxil olub. Avropa və Asiyanın bir sıra ölkələrinin ilk tammetrajlı filmlərinin keçən əsrin 30-50-ci illərində yarandığını nəzərə alsaq, bu filmi xalqımızın mədəni səviyyəsinin yüksək göstəricisi hesab etmək olar.

Azərbaycanda ilk səsli kinonun istehsalına isə 1935-ci ildə "Mavi dənizin sahilində" bədii filmi ilə başlanılıb. Səsli kinonun yaranması ilə sənədli kinonun da yaradıcılıq imkanları genişlənib. 1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan "Arşın mal alan" filmindən sonra Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənib, milli kinomuzun ən uğurlu filmlərindən hesab olunan bu film indiyədək 136 ölkədə nümayiş etdirilib və 86 dilə tərcümə olunub. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş verib, ilk rəngli bədii film olan "O olmasın, bu olsun" çəkilib. Üzeyir Hacıbəyovun bu komediyasının ekranlaşdırılması da milli kinomuza şöhrət gətirib. Bu film dünyanın 40-dan çox ölkəsində nümayiş etdirilib.

Qeyd olunub ki, Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olub. Unudulmaz filmlərimizdən olan "Nəsimi", "Dədə Qorqud", "Babək", "Əzablı yollar", "Gümüşgöl əfsanəsi", "Doğma sahillər" və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvanda aparılıb. Bu gün də muxtar respublikada kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində Naxçıvan şəhərində "Gənclik" Mərkəzi yaradılıb, Şərurda "Bahar", Şahbuzda "Araz" kinoteatrları, Ordubad və Babək Rayon Mədəniyyət evləri yenidən qurulub, ən müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunub. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə dövlət qayğısının daha bir nümunəsidir.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın Mədəniyyət Nazirliyinin iş planına əsasən "Azərbaycan Kinosu Günü" çərçivəsində hər həftə bir milli bədii film geniş ictimaiyyətə təqdim olunur və maraqla qarşılanır.

Sonda 1956-cı ildə çəkilmiş "O olmasın, bu olsun" filmi nümayiş etdirilib.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 3 sentyabr 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 % güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 3844 kvadratmetr torpaq sahəsində yerləşən 3 girişli, 423,76 kvadratmetr ümumi, 423,76 kvadratmetr köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (soyuducu anbar) | Şərur rayonu, Muğancıq-Mehrab kəndi | 156 000 | 132 600 | 7 800 |
| 2. | 3844,97 kvadratmetr torpaq sahəsində yerləşən 1611,6 kvadratmetr əsas sahədən ibarət qurğu (istixana kompleksi) | Şərur rayonu, Muğancıq-Mehrab kəndi | 68 000 | 57 800 | 3 400 |
| 3. | 4000,0 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 61,1 kvadratmetr ümumi, 11,9 kvadratmetr əsas, 49,2 kvadratmetr köməkçi sahədən ibarət qeyri-yaşayış binası (qazdoldurma məntəqəsi) | Şərur rayonu, Məmmədsabir kəndi | 15 000 | 12 750 | 750 |
| 4. | 431 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 144,06 kvadratmetr ümumi, 78,15 kvadratmetr yaşayış, 65,91 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi №16 | 51 500 | 43 775 | 2 575 |
| 5. | 5600 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 9 otaqlı, 130,4 kvadratmetr yaşayış, 216 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 52 000 | 44 200 | 2 600 |
| 6. | 603,0 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 100,0 kvadratmetr yaşayış, 23,28 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 14 000 | 11 400 | 700 |
| 7. | 760 kvadratmetr torpaq sahəsində yerləşən 2 girişli, 130,8 kvadratmetr ümumi, 130,8 kvadratmetr əsas sahədən ibarət kəsim sexi | Kəngərli rayonu, Qarabağlar kəndi | 9 500 | - | 475 |
| 8. | 4700 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 10 000 | - | 500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 31 avqust 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- ödəniləcək behin qəbzi;
-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 3 sentyabr 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

Xalq təqvimi

# "Quyruq doğdu", yoxsa dondu?

*Azərbaycan xalq təqvimində mühüm mərhələlərdən biri də "quyruq doğdu"dur. "Quyruq doğdu" avqust ayının 5-nə təsadüf edir və yayın yarı olduğu dövr hesab olunur. Həm elmi mənbələrdə, həm də xalq arasında "quyruq doğdu" tez-tez müzakirə mövzusuna çevrilir.*

Bəziləri deyir ki, quyruq doğmaz, donar. İlin bu dövrünün maldarlıq təsərrüfatında "quyruq dondu" adlandırılmasının səbəbi isə aşağıdakı kimi izah edilir: deyirlər ki, hava sərin olduğu üçün yaylaqda kəsilən heyvanın əridilmiş quyruğu donar. İstər elmi qaynaqlarda, istərsə də el arasında bu ifadə ilə bağlı çox təzadlı, bəzən isə yanlış fikirlər söylənilir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə belə yazılıb: "Quyruq doğmaq" (əsli quyruq donmaq) yay fəslinin yarıdan keçdiyini bildirən ifadədir. Lüğətdə əsli "quyruq donmaq" yazılsa da, Firudun bəy Köçərli, Süleyman Rəhimov və Mir Cəlala istinadən çəkilən misalların hamısında "quyruq doğdu" yazılıbdır. Üççildlik "Azərbaycan etnoqrafiyası" kitabında isə belə bir məlumata rast gəlirik: "Yayın ikinci dövrünün adına "quyruq doğdu" da deyirlər. Ata-babalarımız yay yarı olan gecə səhərə yaxın şərq tərəfdən işığı arxaya tərəf uzanan quyruqlu ulduzların görünməsini müəyyən edir və təsərrüfat işlərini məhz bu dövrdə görürdülər". Abbasqulu ağa Bakıxanov bu ulduzların görünmə təqvimini işləyib hazırlamışdır ki, bunun da "quyruq doğdu"ya heç bir aidiyyəti yoxdur.

Tədqiqatçıların əksəriyyəti məşhur Azərbaycan təbiətşünası, maarifçi-alim Həsən bəy Zərdabinin 1905-ci ildə yazdığı "Quyruq doğdu, çillə çıxdı" məqaləsinə istinad edirlər. O, bu məsələni belə izah edir: "Elə ulduz var ki, ilin bir vaxtında görünür, qeyri-vaxtlarda görünmür və bir də ulduzlar çox olduğundan onları bir-birindən ayırmaqdan ötrü dəstə-dəstə edib hər bir dəstəyə bu dəstə oxşadığı əşyanın, ya da heyvanın adını qoyurlar ki, onları tanımaq asan olsun. Bu ulduz dəstələrinə cürbəcür adlar qoyublar, o cümlədən onların bir dəstəsinə quyruq deyirlər ki, həqiqətən, heyvan quyruğuna şəbahəti (oxşarı) var. O quyruğa oxşayan ulduz dəstəsi bizim yerimizdə tülu edir (görsənir)".

"Azərbaycan etnoqrafiyası" kitabında yazılıb: "Alimlər araşdırmalar nəticəsində göstəriblər ki, "quyruq doğdu" ifadəsi Buğa bürcündəki ulduz topası ilə bağlı yaranıb. Həsən bəy Zərdabinin yazdığı "quyruğa oxşayan ulduz dəstəsi" Buğa bürcündəki ülkər ulduzlarıdır. Azərbaycanda həmin ulduzlara "Xodək-garvan" və ya "Şamtərəzi" deyirlər". Bunların Buğa bürcündəki ülkər ulduzları olduğu həqiqətdir. Lakin bunun da "quyruq doğdu"ya aidiyyəti yoxdur.

Etnoqraf Qəmərşah Cavadov "Əkinçilik mədəniyyətimizin sorağı ilə" kitabında yenə də Həsən bəy Zərdabinin məqaləsindən istifadə edir. O qeyd edir ki, əhali yayın yarıdan keçməsini Azərbaycanın müxtəlif zonalarında "Ülkər", "Şamtərəzi", "Xodək-garvan" və "Quyruq doğdu" adları ilə məlum olan ulduzların görünməsi ilə müəyyən etmişdir. Qeyd edək ki, Ülkər ulduzları Naxçıvanda iyun ayının 2-də görünür.

Etnoqraf Asəf Orucov da "Xalq təqvimi" kitabında Ordubaddan topladığı çöl materialları əsasında bunu təsdiq edir. Müəlliflərin qeyd etdiyi "Xodək-garvan", "Şamtərəzi", "Ülkər" ulduzları fərqli ulduzlardır və bunlardan "quyruq doğdu"ya yalnız Şamtərəzi aiddir. (Naxçıvan şəhərində buna "Mizan tərəzi", Ordubadda isə "Arşın tərəzi" deyirlər). Uzun illər apardığımız müşahidəyə görə, hər kəs avqustun 5-i və sonrakı günlər sübh vaxtı şərq tərəfə baxarsa, bir-birindən, təxminən, 1,5-2 metr aralı, bir xətt üzrə düzülmüş 3 böyük ulduzu görər.

"Quyruq dondu" ifadəsinə gəldikdə isə yaylaqda əridilmiş quyruq yağının donması vaxtı təyin etmək üçün əsas ola bilməz. Müxtəlif illərdə iqlimdə dəyişikliyin olması, yaylaqların dəniz səviyyəsindən hündürlüyü dəqiq vaxt təyin etməyə imkan vermir. "Quyruq doğdu" isə konkret astronomik vaxtdır ki, hər il eyni vaxtda baş verir. Xalqımızın uzunmüddətli müşahidəsinə görə, "quyruq doğdu"dan sonra yaylaqda dəvələr üzü arana tərəf yatarlar. Bununla da, artıq maldarlar havaların soyuduğunu, arana köçməyin vaxtı gəlib çatdığını bilərlər. "Quyruq doğan" dövr xalq təqvimində "qora bişirən ay"ın içərisindədir (15 iyul-15 avqust). Bundan sonra iqlimdə sərinləmə başlayır, axar sular soyuyur. Xalq inanclarına görə, "quyruq doğdu"dan sonra mineral sular müalicəvi əhəmiyyətini itirir.

Arıçılıq təsərrüfatında da ilin bu dövrünün özünəməxsus yeri vardır. Belə ki, peşəkar arıçıların dediyinə görə, "quyruq doğdu"ya qədər balı kəsməzlər, çünki bu vaxta qədər bal sulu olar, tez süzülsə, turşuyar. Sahələrdən küləşi bu dövrdən sonra yığarlar, çünki axşamlar artıq şeh düşür, küləş quru olmadığı üçün asan toplanır. Bu dövrdə təsərrüfat işlərində quzular qırxılıb sürüyə qatılardı. Bəzən yaşlılar deyərdilər ki, bu işə "həmərsin qızaranda" başlamaq lazımdır. Bu dövrdən etibarən həmərsin meyvələri yetişir. Küləş götürüldükdən sonra şum işinə başlanılırdı. Bir sözlə, "quyruq doğdu" ifadəsi qışa hazırlığın başlandığı dövr hesab edilir.

**Zaleh NOVRUZOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ildə taxıl biçininin yekununa dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4348 | 4348 | 13861 | 31,9 |
| 2. | Babək rayonu | 10526 | 10526 | 33275 | 31,6 |
| 3. | Ordubad rayonu | 1678 | 1678 | 4747 | 28,3 |
| 4. | Culfa rayonu | 6116 | 6116 | 17465 | 28,6 |
| 5. | Kəngərli rayonu | 4706 | 4706 | 13128 | 27,9 |
| 6. | Şahbuz rayonu | 1615 | 1615 | 4432 | 27,4 |
| 7. | Sədərək rayonu | 2466 | 2466 | 7959 | 32,3 |
| 8. | Naxçıvan şəhəri | 1028 | 1028 | 2822 | 27,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32483** | **32483** | **97689** | **30,1** |

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 554